“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi

“Education” Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union

Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 42 00, Heydər Əliyev prospekti 3,
İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon/Mobil: (0 51) 814 44 42

# NƏQLİ HESABAT – 2014

## Təsisat tarixi

***“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.

İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## Məqsəd və vəzifələr

İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.

Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Təşkilati struktur

- Ümumi Yığıncaq (Ali İdaeəetmə Orqanı);
- İdarə Heyyəti (İcra Orqanı);
- Prezident;
- Vitse-prezident;
- Nəzarət Təftiş Komissiyası;
- İcraçı direktor;
- Direktorlar Şurası.

## Həmtəsisçilər və üzvlük

MAGİYA ictimai birliyinin 2 həmtəsisçisi, 9 üzvü və 24 nəfər könüllüsü vardır. İctimai birliyin nümayəndələri həm respublika daxilində, həm də respublikadan kənarda (Gürcüstan, Belçika, Almaniya

və s.) müxtəlif əməkdaşlıq layihələrini böyük uğurla həyata keçirir. İctimai birliyin nümayəndələri Gürcüstan, Ukrayna, Belçika, Avstriya, Böyük Britaniya, ABŞ, Belorusiya, Litva, Türkiyə, Almaniyada keçirilən müxtəlif proqramlarda çox fəal iştirak etmiş və ictimai birliyi həmin ölkələrdə layiqincə təmsil etmişlər.

İctimai birliyə üzvlük pulsuz və könüllüdür. Hər bir 18-35 yaşarası ziyalı gənc ictimai birliyə üzv ola bilər. Bundan ötrü ictimai birliyə müvafiq ərizə ilə müraciət etmək lazımdır.

***MAGİYA ictimai birliyinin həmtəsisçiləri və üzvləri***

| *№* | *Adı və soyadı* | *Vəzifəsi* | *Statusu* |
|---|---|---|---|
| 1 | A.Ə.Məlikov | Prezident | Həmtəsisçi |
| 2 | Z.Z.Babayev | NTK-nın sədri | Həmtəsisçi |
| 3 | E.K.Fəttayev | Vitse-prezident | Üzv |
| 4 | Ə.B.Cankişizadə | Vitse-prezidentin assistenti | Üzv |
| 5 | S.V.Babayev | İcraçı direktor | Üzv |
| 6 | K.O.Babayev | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | Üzv |
| 7 | N.E.Rəhmanov | İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 8 | Ş.E.Rəhmanlı | KİV-lə əlaqələr şöbəsinin müdiri | Üzv |
| 9 | M.A.Şahverdiyev | İnsan resursları şöbəsinin müdiri | Üzv |
| 10 | İ.F.Muradov | Layihələr və tədbirlər şöbəsinin müdiri | Üzv |
| 11 | V.O.Babayev | Mühasibatlıq və audit şöbəsinin müdiri | Üzv |

**Qazandığı mükafatlar**

| *№* | *Məzmun* | *Titul* | *Tarix və yer* | *Təşkilat* |
|---|---|---|---|---|
| 1 | "Yerlərdə Dövlət Gənclər Siyasətini uğurla həyata keçirdiyinə görə" | Fəxri Fərman | 02 fevral 2007-ci il, Lənkəran | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| 2 | "Rayonun ictimai-siyasi həyatındakı fəallığına görə" | Fəxri Fərman | 29 dekabr 2010-cu il, Lənkəran | Lənkəran şəhər İcra Hakimiyyəti |
| 3 | "2011-ci il ərzində göstərdiyi uğurlu fəaliyyətə görə" | Fəxri Diplom | 1 fevral 2012-ci il, Bakı | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| 4 | "Azərbaycan Könüllülük Xidməti" üzrə Milli Akkreditasiya Sertifikatı | Şəhadətnamə | 05 dekabr 2013-cü il, Bakı | Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası |

**Təsis etdiyi mükafatlar**

MAGİYA ictimai birliyi ***"Gənclərin inkişafı sahəsində göstərdiyi dəstəyə görə"*** 27 may 2012-ci il tarixində ***"Gənclərin Dostu"*** adlı ***Fəxri Diplom*** təsis etmişdir.

İlk dəfə "Gənclərin Dostu" adlı Fəxri Diplomla 09 iyul 2012-ci il tarixində ABŞ-ın Milli Demokratiya İnstituitunun ölkə üzrə direktoru cənab Aleks Qriqoryevs təltif olunmuşdur.

**Üzv olduğu qurumlar**

- "Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası", 2005-ci il;
- "Uşaq hüquqları üzrə QHT Alyansı", 2006-cı il;
- "İnsan Alverinə qarşı QHT Koalisiyası", 2009-cu il.

**Donorlar və Tərəfdaşlar**

- Avropa İttifaqı;
- Statoil Şirkəti;
- Uşaqların Xilası Təşkilatı;
- Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi;
- Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu;
- Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası;
- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Birləşmiş Millətlər Təşkilatının Demokratiya Fondu;
- Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi;
- Almaniya Federal Xarici İşlər Nazirliyi.

**Layihələr**

| № | Layihə | Təfsilatı |
|---|---|---|
| 1 | ***Adı*** | ***"İnkişaf Zamanı"*** |
| | ***Məqsədi*** | Müasir inkişaf sahəsi ilə əlaqədar gənclərin ictimai fəallığının artırılması, onların bu sahədə geniş maarifləndirilməsi və məlumatlandırılması |
| | ***Məbləği*** | 10 773,75 avro |
| | ***Tarixi*** | 01 fevral – 30 aprel 2014-cü il |
| | ***Yeri*** | Lənkəran |
| | ***Tərəfdaşlar*** | Almaniyanın MitOst Assosiasiyası |

| | | |
|---|---|---|
| | ***Donorlar*** | Alman Federal Xarici İşlər Nazirliyi və Robert Bosch Fondu |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 2 | ***Adı*** | ***"Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması"*** |
| | ***Məqsədi*** | Yerli icra hakimiyyəti, bələdiyyələr və dairə seçki komissiyaları ilə sıx əməkdaşlıq çərçivəsində bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması |
| | ***Məbləği*** | 5 000 manat |
| | ***Tarixi*** | 01 sentyabr – 22 dekabr 2014-cü il |
| | ***Yeri*** | Masallı, Astara və Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Masallı, Astara və Lənkəran şəhər Gənclər və İdman İdarələri |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| **№** | **Layihə** | **Təfsilatı** |
| 3 | ***Adı*** | ***"Korporativ sosial məsuliyyətin inkişafında gənclərin rolunun artırılması"*** |
| | ***Məqsədi*** | Korporativ sosial məsuliyyət siyasətinin formalaşmasında gənclərin maarifləndirilməsi və məlumatlandırılması |
| | ***Məbləği*** | 6 500 manat |
| | ***Tarixi*** | 01 oktyabr – 30 dekabr 2014-cü il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| | ***Donorlar*** | Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu |

**Nəşrlər**

1. ***"Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması"*** layihəsi çərçivəsində bukletlər;
2. ***"Korporativ sosial məsuliyyətin inkişafında gənclərin rolunun artırılması"*** layihəsi çərçivəsində bukletlər.



- **Seçkilər** – Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının Seçki Məcəlləsi əsasında keçirilən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri;
- **Seçici** – seçki hüququna malik şəxs;
- **Seçki (referendum) komissiyası** – Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulan qaydada formalaşdırılan və seçkilərin (referendumun) keçirilməsini təşkil edən və təmin edən kollegial orqan;
- **Seçki dairəsi** – qeydə alınmış seçicilərin hər hansı seçkili orqana nümayəndə/lər seçməsi üçün Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq təşkil edilmiş ərazi vahidi;
- **Namizəd** – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Prezidenti, bələdiyyələrə üzv seçilmək üçün Seçki Məcəlləsinə uyğun olaraq namizədliyi irəli sürülmüş şəxs;
- **Seçkilər (referendum) səsvermə gününə azı *60* gün qalmış elan edilir.**

**Buklet Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilən layihə çərçivəsində nəşr edilmişdir**

**Bukletin məzmunu yalnız MAGİYA ictimai birliyinin cavabdehliyi altındadır və buna heç bir halda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin mövqeyinin əks olunduğu sənəd kimi istinad edilməməlidir**




**L Ə N K Ə R A N 2 0 1 4**

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) İctimai Birliyi***

*Əlaqə məlumatları:*
**Ünvan:** AZ 4200, Lənkəran şəhəri, Heydər Əliyev prospekti 3
**İnternet səhifəsi:** www.epsaya.az
**E-mail:** info@epsaya.az
**Mobil:** (+ 994 55) 792 44 42

## Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi

# "Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması"




MAGİYA • ПАСПАМ • EPSAYA

"Maarifpərvərlik"
Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası
(MAGİYA) İctimai birliyi

"Просвещение"
Ассоциация Социальной Поддержки Азербайджанской Молодежи
(ПАСПАМ)

"Education"
Public Support Association of Youth of Azerbaijan
(EPSAYA)



### MAGİYA İCTİMAİ BİRLİYİ HAQQINDA

**MAGİYA ictimai birliyi** 31 mart 2005-ci il tarixində Lənkəran səhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünü idarə edən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökumət təşkilatıdır. İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**Birliyin məqsədi və fəaliyyət predmeti** gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji istiqamətlərdə müvafiq maarifləndirmə və məlumatlandırma işlərinin aparılmasından ibarətdir.

**Birliyin başlıca vəzifələri** onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

**Birliyin fəaliyyət dairəsi** Azərbaycan Respublikasının bütün ərazisini əhatə edir.

**Bələdiyyə seçkilərində gənclərin məlumatlılığının və iştirakçılığının artırılması**

**Bələdiyyə** – qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması olub öz mülkiyyəti (bütün növ daşınar və daşınmaz əmlak) və yerli büdcəsi olur. Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir. Bərabərlik əsasında qurulan və fəaliyyət göstərən bələdiyyələr özlərinin səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edirlər. Bələdiyyələrə seçkilər vətəndaşların qanunla müəyyənləşdirilmiş seçki hüquqları təmin edilməklə, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermə yolu ilə həyata keçirilir.
Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyətləri onların ilk iclas günü başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyələrin səlahiyyət müddətində qüvvədədir. Seçkilər günü 18 yaşı tamam olan və yaşı 18-dən yuxarı olan Azərbaycan Respublikası vətəndaşlarının bələdiyyələrə üzv seçmək hüququ vardır. Seçkilər günü 21 yaşı tamam olan və yaşı 21-dən yuxarı olan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

**Bələdiyyə seçkilərində gənclərin məlumatlılığının və iştirakçılığının artırılması**

Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında seçkilər həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır.
**Seçki** – dövlət və ictimai təşkilatlarda vacib postların tutulması üçün keçirilən demokratik üsul olub cəmiyyəti ədalətsizlikdən qoruyur. Seçkilər qanunda nəzərdə tutulan seçki reqlamentinə uyğun olaraq gizli və açıq keçirilir. Dünya təcrübəsində seçki sisteminin iki əsas tipi – majoritar və proporsional seçki sistemləri mövcuddur. Bunlardan əlavə bir sıra ölkələrdə hər iki sistemin ayrı-ayrı ünsürlərini özündə əks etdirən qarışıq seçki sistemi adlanan forma da tətbiq edilir.
**Seçki hüququ** Azərbaycan Respublikasında seçkili dövlət orqanlarının təşkili qaydalarını nizamlayan hüquq normalarının sistemidir. Seçki hüququ ölkənin Konstitusiyası ilə müəyyən edilir.
Seçkilər günü 18 yaşı tamam olan və ya yaşı 18-dən çox olan bütün Azərbaycan Respublikası vətəndaşlarının seçmək hüququ vardır.
18 yaşına çatmış və fəaliyyət qabiliyyəti olan vətəndaşların hamısı seçki hüququna malikdirlər. Mənşəyinə, siyasi baxışlarma, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyət növünə və xarakterinə görə Azərbaycan Respublikası vətəndaşlarınm seçki hüquqlarının birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır.



**KSM sahəsində istifadə olunan əsas terminlər**

- ***Filantropiya:*** insanların rifahının yaxşılaşdırılması üçün yardım – vəsait nəğd və ya digər formada ola bilər.
- ***Könüllülük:*** cəmiyyətin ehtiyacını qarşılamaq məqsədi ilə ödənişsiz fəaliyyətlə məşğul olmaq.
- ***İanələr:*** ehtiyacı olanlara "maddi dəyər" təşkil edən resursların təmini (mebel, kompüter, bilik, təcrübə və s.).
- ***Sosial sərmayə:*** şirkətin profilinə uyğun olaraq uzunmüddətli sosial proqramların həyata keçirilməsi.



*KSM hər şeydən öncə bir **xeyirxahlıq** anlayışıdır!*

**Buklet Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən maliyyələşdirilən layihə çərçivəsində nəşr edilmişdir**

**Bukletin məzmunu yalnız MAGİYA ictimai birliyinin cavabdehliyi altındadır və buna heç bir halda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun mövqeyinin əks olunduğu sənəd kimi istinad edilməməlidir**



**L Ə N K Ə R A N 2 0 1 4**

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) İctimai Birliyi***

*Əlaqə məlumatları:*
**Ünvan:** AZ 4200, Lənkəran şəhəri, Cavanşir küçəsi, Ev 4q
**İnternet səhifəsi:** www.epsaya.az
**E-mail:** info@epsaya.az
**Mobil:** (+ 994 55) 792 44 42

AZƏRBAYCAN
GƏNCLƏR FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu**

# "KORPORATİV SOSİAL MƏSULİYYƏTİN İNKİŞAFINDA GƏNCLƏRİN ROLUNUN ARTIRILMASI"

MAGİYA • ПАСПАМ • EPSAYA

"Maarifpərvərlik"
Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası
(MAGİYA) ictimai birliyi

"Просвещение"
Ассоциация Социальной Поддержки Азербайджанской Молодежи
(ПАСПАМ)

"Education"
Public Support Association of Youth of Azerbaijan
(EPSAYA)



## MAGİYA ictimai birliyi haqqında

**MAGIYA ictimai birliyi** 31 mart 2005-ci il tarixində Lənkəran səhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünü idarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökumət təşkilatıdır. İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**Birliyin məqsədi və fəaliyyət predmeti** gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji istiqamətlərdə müvafiq maarifləndirmə və məlumatlandırma işlərinin aparılmasından ibarətdir.

**Birliyin başlıca vəzifələri** onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.



## Korporativ Sosial Məsuliyyət (KSM) barədə

**KSM** hər şeydən öncə ümumi rifah naminə biznes qurumlarının və icmaların, QHT-lərin və yerli dövlət orqanlarının icma ehtiyaclarını müəyyən etmək məqsədi ilə birgə əməkdaşlıq və yerli sosial problemlərin həlinə dəstək deməkdir.
**KSM** cəmiyyətin həyat şəraitini yaxşılaşdırmaq üçün öz əməkdaşları, onların ailələri, yerli əhali, bir sözlə bütün cəmiyyətlə birlikdə dünyanı yaşanılası hala gətirmək üçün (***"sustainable world"***) iqtisadi, ekoloji, mədəni və ictimai inkişafa dəstək vermə məsuliyyətidir. **KSM** şirkətlərin bütün maraqlı tərəflərə (***"stakeholder"***) və cəmiyyətə qarşı etik və məsuliyyətli davranması, bu istiqamətdə qərarlar qəbul etməsi və həyata keçirməsində vacib rol oynayır. Amma bunu qətiyyən **sponsorluq** anlayışı ilə qarışdırmaq olmaz. **KSM**-in layihələri ictimaiyyətdə yaratdığı təsir gücü ilə etibarlılığın və brendin dəyərinin artmasına köməklik göstərir. Şirkətlər üçün KSM keyfiyyət meyarı olaraq qəbul edilməlidir.
**KSM** layihələrinin ən başlıca meyarı onun davamlı olmasıdır. Cəmiyyətə fayda verən layihənin, işin dəyəri ölçülə bilməz. **KSM** markanın etibarlılığına, məlumatlılığına və seçilməsinə birbaşa təsir edir.



Ölkə ərazisində, müxtəlif şirkətlər fəaliyyət göstərsə də, onların KSM siyasətin həyata keçirilməsindəki rolu çox az hiss edilir. Bu da öz növbəsində icma ehtiyaclarını müəyyən etmək məqsədi ilə birgə əməkdaşlıq və yerli sosial problemlərin həllinə olan dəstəyin zəifliyinə gətirib çıxarır. Bu baxımdan QHT - Biznes əməkdaşlığının əsas amalı biznes strukturlarının cəmiyyətlə dialoquna və sosial tərəfdaşlığına metodiki və informasiya dəstəyinin göstərilməsidir. Azərbaycanda şirkətlər adətən KSM sahəsində ancaq özlərinin şirkətdaxili normativ-hüquqi aktlarına uyğun fəaliyyət göstərmələrinə üstünlük verir. Bu da öz növbəsində şirkətlərin fəaliyyət sahəsinə aid edilən icma əraziləri üzrə sosial-iqtisadi problemlərin həlli istiqamətində özünəxas boşluqlar yaradır. Bunun başlıca səbəbləri isə KSM sahəsində Beynəlxalq təcrübənin kifayət qədər öyrənilməməsi, milli institutlaşmanın və tədrisin zəif olması, bu sahədə mədəniyyətin zəifliyi, kadr və mütəxəssis potensialının azlığıdır. Buna görə də, mövcud maneələri aradan qaldırmaq üçün yerlərdə fəaliyyət göstərən QHT-lər öz fəaliyyət istiqamətləri üzrə şirkətləri vacib informasiya ilə təmin etməli, müvafiq saziş və konsepsiyalar hazırlamalı, Beynəlxalq təşkilatlarla daha intensiv əməkdaşlıq etməli və birgə fəaliyyət birlikləri yaratmalıdırlar.